# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# Ə M R İ

**Bakı şəhəri** **№14** **12 aprel 2022-ci il**

**Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə əməl edilmədiyinə görə intizam və tənbeh tədbirləri barədə**

Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların bağladıqları müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili və tövsiyələrin hazırlanması barədə" 2022-ci il 02 fevral tarixli 1/6 nömrəli sərəncamı ilə yaradılmış komissiya (V.Cavadov) tərəfindən təqdim edilmiş 2022-ci il 07 aprel tarixli 328 nömrəli xidməti məktuba və Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nin V bölməsinə əsasən Palata Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri"nə əməl etməyən auditor təşkilatları və sərbəst auditorlar barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri"nə əməl etmədiyinə görə aşağıda adı qeyd edilən auditor təşkilatının rəhbərinə xəbərdarlıq olunmasına baxmayaraq eyni əməli təkrar törətdiyinə görə şəxsi işinə qeyd edilməklə töhmət elan edilsin:

- "Audit Consulting 17" MMC (direktor – Cəfərov Nazim Suxənvər oğlu).

2. Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri"nə əməl etməyən adları aşağıda qeyd edilən auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara xəbərdarlıq elan edilsin:

1. "İnter Audit" auditor təşkilatı (direktor – Bağırov Əlimuxtar Balağa oğlu);
2. "Kaspian Audit Kompani" MMC (direktor – Məhərrəmzadə Nərmin Eysan qızı);
3. "SR Audit Solutions" MMC (direktor – Vəlizadə Səftər Vəli oğlu);
4. Əliyev Ruslan Şirvan oğlu – Sərbəst auditor;
5. Əlizadə Rahim Ələkbər oğlu – Sərbəst auditor;
6. Quliyev Rüfət Hüseyn oğlu – Sərbəst auditor;
7. Soltanov Qulu Mehbalı oğlu – Sərbəst auditor.

3. Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri”nə dəfələrlə əməl etmədiyinə və dempinqə yol verdiyinə görə “AF Audit” MMC-nə (direktor – Vahabov Adil İdris oğlu) xəbərdarlıq və töhmət elan olunmasına baxmayaraq eyni əməli yenidən törətdiyinə görə cəmiyyətin fəaliyyətinin plandankənar keyfiyyətə nəzarət üzrə monitorinqi həyata keçirilsin.

4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrin 1-ci və 2-ci bəndlərindən irəli gələn məsələləri həll etsin.

5. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (V.Rəhimov) tapşırılsın ki, bu əmrin 3-cü bəndindən irəli gələn məsələləri həll etsinlər.

6. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu əmrin mətninin xəbərdarlıq məktubu ilə birlikdə adları qeyd edilən auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsini təmin etsin.

7. Bu əmrin mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**